HISTORY OF SCIENCE AND SCIENCE OF SCIENCE

Pages / Səhifələr: 37-52
https://doi.org/10.59849/2788-9831.2025.1.37

# "Cəvahir əl-əxbar" əsərinin müəllifi olan Budaq Münşi Qəzvini

*Budaq Munshi Qazvini, author of "Javahir al-Akhbar"*

**Elxan Quliyev/ *Elkhan Guliyev***
*Institute of Oriental Studies,*
*Azerbaijan National Academy of Sciences*
elkhan2000@yahoo.com

**ORCID ID**:
0000-0002-9226-8877

**Daxil oldu**
***Received***: 20.04.2025

***Qəbul olundu***
***Accepted***: 12.05.2025

***Xülasə.*** Məqalədə XV-XVI əsrlər Azərbaycan tarixinə dair mühüm məlumatları özündə əks etdirən "Cəvahir əl-əxbar" kitabının müəllifi Budaq Münşi Qəzvinin həyat və yaradıcılığışərh olunub. Bu məqsədləhəmin qaynağı təshih edən Mohsen Bəhramnejadın yazdığı "ön söz"dəki məlumatlardan istifadəedilmişdir. Qeyd etmək lazımdır ki, elmi cəhətdən Azərbaycan tarixşünaslığı üçün önəmli olan bu ilk yazılı qaynaqhal-hazırda müəllif tərəfindənfars dilindən Azərbaycan dilinə tərcümə edilir və yekunlaşmaq üzrədir. Məqaləni yazmaqda əsas məqsədhər şeydən əvvəl əsərin müəllifi olan Budaq Münşi Qəzvinini Azərbaycanınelmi ictimaiyyətinə nisbətən geniş formada tanıtmaqdan ibarətdir.Məqalədə Budaq Münşi Qəzvini haqqında "Cəvahir əl-əxbar" əsərində əks olunan mühüm tarixi məlumatlardan istifadə olunub.Məlumatlardan aydın olur ki, Budaq Münşi Qəzvini bəhs edilən dövrdə müxtəlif dövlət vəzifələrində çalışmışdır. Məhz bu səbəbdən onun qələmə aldığı "Cəvahir əl-əxbar" əsəri XV-XVI əsrlər Azərbaycan tarixşünaslığı üçün böyük əhəmiyyət kəsb edir.
***Açar sözlər:*** "Cəvahir əl-əxbar",tarix, müəllif, Budaq Münşi Qəzvini, Azərbaycan

***Abstract.*** The article is devoted to the life and activity of the Budagh Munshi Ghazvini, author of the book "Javahir al-akhbar", which reflects important information about the history of Azerbaijan in the XV-XVI centuries. For this purpose, the information in "preface" written by Mohsen Bahramnejad,compiler of this book is used. It should be noted that, in terms of scientific knowledge, this first written source is currently being translated from Persian to Azerbaijani language by the author. First of all, main purpose of writing article is to introduce Budagh Munshi Ghazvini to the scientific community of Azerbaijan in a detailed way. The important historical information about Budagh Munshi Ghazvini in "Javahir al-akhbar" work is highlighted. According to the information, Budagh Munshi Ghazvini worked in various government positions during the mentioned period. It is for this reason that his work "Javahir al-Akhbar" is of great importance for Azerbaijani historiography for XV-XVI centuries.
***Key words:*** "Javahir al-Akhbar", history, author, Budag Munshi Qazvini, Azerbaijan

***Резюме.*** В статье представлены исследования о жизни и творчестве Будага Мюнши Кязвини, автора важного источника по истории Азербайджана XV-XVI веков — книги «Джавахир аль-ахбар». Для этой цели использованы данные, представленные в «предисловии» к произведению, написанном Мохсеном Бехрамнежадом. Следует отметить, что этот важный для азербайджанской историографии первоисточник в настоящее время переводится автором с персидского языка на азербайджанский. Основная цель статьи — это, прежде всего, более широкое знакомство азербайджанской научной общественности с Будагом Мюнши Кязвини. В статье использованы исторические данные о жизни Будага Мюнши Кязвини, извлеченные из его произведения. Ясно, что Будаг Мюнши Кязвини в своем времени занимал различные государственные должности, и именно поэтому его произведение «Джавахир аль-ахбар» имеет особое значение для истории Азербайджана XV-XVI веков.
***Ключевые слова:*** «Джавахир ал-Ахбар», произведение, автор, Будаг Мунши Казвини, Азербайджан

**Giriş**

Müəllifi Budaq Münşi Qəzvini olan "Cəvahirül-əxbar"əsəri ümumi tarix kitabı olaraq qələmə alınmışdır. Əsərdə ümumilikdə yaradılış və Adəm peyğəmbərin yer üzünə endirilməsi hadisəsinin şərhindən başlayaraq hc.984/m.1576-cı ilədək baş vermiş tarixi hadisələr öz əksini tapmışdır. Müəllif əsərində cahan və Adəm peyğəmbərin yaradılışı, islamdan əvvəl və sonrakı sultanlar barədə qısa və müxtəsər şəkildə məlumat vermişdir. Lakin o, özünün də yaşadığı Səfəvilər dövrünü və həmin dövrdə baş vermiş tarixi hadisələri daha müfəssəl şəkildə şərh etmişdir.

Məqaləmizin hazırkı bölməsində müəllifhaqqında məlumat verməyi məqsədə uyğun hesab edirik. "Cəvahir əl-əxbar" əsərinin müəlifi Budaq Münşi Qəzvini bir müddət Səfəvi dövlətinin divanında münşi olaraq çalışmış və bu sülalənin şahzadələri, eləcə də həmin dövrün bir çox tanınmış dövlət adamları ilə yaxın dostluq əlaqələrində olmuşdur.

Qeyd edilməlidir ki, Səfəvilər dövründən günümüzə gəlib çatmış tarixi məxəz və təzkirələrdə - avtobioqrafiyalarda müəllifin həyat və yaradıcılığına dair heç bir məlumata rast gəlinmir. Həmçinin son dövrlərdə qələmə alınmış əsərlərdə, kitab kataloqları və tədqiqat işlərində də Budqa Münşi Qəzvinin adına və yaxud onun yazdığı əsərlərə dair məlumatlara da demək olar ki, heç rast gəlinmir [1, s. 258; 13, s. 261; 3, s. 592-595; 17, s. 356; 6, s. 225; 2, s. 101; 16, s. 4136; 8, s. 125]. Odur ki, müəllif barədə az-çox məlumat verən yeganə mənbə elə müəllifi olduğu"Cəvahir əl-əxbar" əsəridir. Budaq Münşi Qəzvini həmin əsərin müxtəlif bölmələrində özü haqqında bəzi qısa və dağınıq məlumat vermişdir.Amma xoşbəxtlikdən o, ayrıca olaraq kitabın "Müəllif, Budaq Münşinin həyatı"adlı bir bölməsini özünün tərcümeyi-halına həsr etmişdir. Müəllif burada öz həyatı ilə bağlı bizim üçün qaranlıq olan bəzi məqamlara da işıq sala bilmişdir [4, s. 187-190].

Qeyd etmək lazımdır ki, sözügedən məxəzin "Müəllif, Budaq Münşinin həyatı" bölməsi 1956-cı ildə rusiyalı şərqşünas alim P.H.Petrov tərəfindənrus dilinə tərcümə və"Səfəvilərə dair az rastlaşdığımız mənbə haqqında" adlı məqaləşəklində çap etdirilmişdir."Sovet Şərqşünaslığı" adlı elmi jurnalda dərc edilmiş bu məqalədə həmçinin "Cəvahir əl-əxbar" əsərinə dair bəzi digər məlumatlar da yer almışdır[1, s. 111-112]

Həmçinin qeyd dək ki, "Cəvahirül-əxbar" əsərinin sözügedən bölməsi"Roger Mervyn Savory" tərəfindən ingilis dilinə tərcümə və"I Şah Təhmasibin dövründə (1524-1576)

katiblik peşəsi" adlı məqalə şəklində "İslam ilə bağlı mütaliələr"jurnalında (ikinci c., No 3, Kəraçi, 1963) çap edilmişdir və biz burada məqalədəki həmin məlumatlardan da istifadə etmişdik [3, s. 595-596].

Müəllif haqqında məlumatı təqdim etməzdən əvvəl bir neçə mühüm məsələni oxucuların diqqətinə çatdırmaq istəyirik:

1.Müəllifin özü haqqında verdiyi məlumatlar qısa və müxtəsər olmaqla yanaşı, həm də qeyri-dəqiqdir.

2.Müəllif tərəfindən təqdim edilən məlumatlar arasında həddən artıq şişirdilmiş ifadələr də mövcuddur.

3.Müəllifin özü barədə təqdim etdiyi məlumatların əksər hissəsi tarixi xronologiya və onun peşəsi ilə uyğunsuzluq təşkil edir.

4.Müəllifin avtobioqrafiyası ilə bağlı şübhəli məqamlar da qeyd edilmişdir.

Beləliklə, keçək müəllif haqqında məlumatlara. Müəllifin dəqiq doğum tarixi bizə məlum deyil və onun özü də bu əsərdə bununla bağlı aydın bir fikir bildirməmişdir. Lakin buna baxmayaraq müəllifin özü haqqında yazdıqlarını mütaliə etdikdən sonra onun doğum tarixi ilə bağlı iki seçim üzərində dayanmağımıza imkan verir:

1) Hc.918/m.1512-ci il -Belə ki, Budaq Münşi Qəzvini öz avtobioqrafiyasını şərh edərkən yazır ki:

"...on dörd yaşım olanda "Padşahın divanına" getdim və bu Padşahın hakimiyyətdə olduğu dövrün ilk illərinə təsadüf edirdi, Padşah Təkəli və Ustaclu tayfaları tərəfindən ortaya atılan fitnə-fəsad və çaxnaşmadan dolayı Qəzvinə gələrək orada qışlaq etdi... [4, s. 187]".

Səfəvilər dövrünə aid olan mənbələrə görə, I Şah Təhmasib hc.930/m.1524-cü ildə taxta çıxmış və ilk dəfə Qəzvində keçirdiyi qış mövsümü də hc.932/1526-cı ilə təsadüf etmişdir. Ustaclu tayfası məhz bu tarixdə Rumlu və Təkəli tayfalarına məğlub olmuş və məğlubiyyətdən sonra Gilana qaçmışdır [11, s. 283; 10, s. 62; 9, s. 7; 7, s. 258; 4, s. 151]

Əgər Budaq Münşinin "Padşahın divanına" daxil olması hadisəsinin - müəllifin yaşını da nəzərə alaraq hc.932/m.1526-cı ildə və yaxud ona yaxın bir tarixdə baş verdiyini qəbul etsək, o zaman onun hc.918/m.1512-ci ildə doğulduğu məlum olur.

2) Hc.916/m.1510-cu il –Nu tarixlə bağlı isə deyə bilərik ki, Budaq Münşi Qəzvini özü haqqında yazdığı mətləblərin son hissəsində aydın şəkildə qeyd edir ki,

hc.984/m.1576-cı ildə onun altmış səkkiz yaşı olmuşdur. Aşağıdakı ifadələrə diqqət yetirək:

*"...əsərin yazılıb başa çatdırıldığı tarixdə bəndeyi-həqirin altmış səkkiz (68) yaşı var idi və ... (hc.984/m.1576) ildə yazılanlar müəllifin tərcümeyi-halına aid olanlardır"*[4, s. 190].

Həmin məlumatı əsas götürərəkdaha əminliklə deyə bilərik ki, Budaq Münşi Qəzvini hc.916/m.1510-cu ildə doğulmuş və o, hc.930/m.1524-cü ildə, yəni on dörd yaşında "Padşahın divanına" daxil olmuşdur. Beləliklə, hc.932/m.1526-cı ildə müəllifartıq iki il idi ki divanda çalışırdı.Onun öz təvəllüdünü Şah Təhmasibin ilk dəfə qışlaq etdiyi ilə təsadüf etdiyini qeyd etməsinə gəldikdə isə deyə bilərik ki, müəllif böyük ehtimalla həmin tarixi düzgün hesablaya bilməməşdir.

Qyed edək ki, Budaq Münşi Qəzvinin təhsil səviyyəsinə dair əlimizdə heç bir məlumat yoxdur. Hətta onun özü tərəfindən qələmə alınmış "Cəvahir əl-əxbar" kitabında belə bununla bağlı məlumat verilməmişdir. O, yalnız kitabın giriş hissəsində qeyd etmişdir ki, onun tarix elminə və tarixi kitabların mütaliəsinə marağı vardır. Məhz həmin marağın nəticəsində hazırki əsərərsəyə gəlmiş və bu günümüzə qədər gəlib çata bilmişdir. "Cəvahir əl-əxbar" kitabı müəllifin tarixşünaslıq sahəsində nə dərəcədə irəliləyərək inkişaf etdiyinin göstəricisidir.

Budaq Münşi Qəzvini "Cəvahir əl-əxbar" əsərində öz ailəsi və atası barədə, eləcə də atasının tutduğu vəzifə ilə bağlı məlumat verməmişdir. Amma o, ana tərəf qohumlarından iki nəfərin adını qeyd etmişdir. Müəllif yazır ki,bu qohumlardan biri onun Səfəvilər dövründə divan işlərinə girərərək bu sahədə özünü inkişaf etdirib yüksəlməsində təkanverici rol ifa etmişdir. Budaq Münşinin verdiyi məlumata əsasən deyə bilərik ki, o, ana tərəfdən Qəzvin ərazisində yerləşən "Şalkan" adlı bir bölgədə yaşayan nüfuzlu bir ailəyə mənsubdur. Bu ailə yalnız Ağqoyunluların son dövründə deyil, həm də Səfəvilər dövründə kifayət qədər hörmətli bir ailə olmuşdur. Qeyd etmək kazımdır ki, "Şalkan" toponiminə mənbələrdə rast gəlinmir. Ehtimal edilir ki, bu toponim "Şal" sözündən götürülmüş və Qəzvin əyalətinin tərkibinə daxil olan bir yer adı olmuşdur [15, s. 64; 14, s. 277].

Müəllifin babası (ana babası) olan Xacə Ruhullah Şalkani Qəzvini öz nəslinin adlı-sanlı şəxsiyyətlərindən biri olmuşdur. O, hc.896/m.1491-ci ildə, Baysunqur Mirzə Ağqoyunlunun qısa müddətli hakimiyyəti dövründə Süleyman Bəy Bijənin himayədarlığı ilə vəzirlik məqamına qədər yüksələ bilmişdir. [4, s. 91]

Digər tərəfdən bir məsələni də qeyd etmək lazımdır ki, Ağqoyunlular sülaləsinin hakimiyyətdə olduğu dövrün son illəri İran və Azərbaycanın siyasi tarixində ən həssas dövr kimi yadda qalmışdır. Çünki, hc.896/m.1491-ci ildə Yaqub Bəyin ölümündən sonra Bayandurlar dövlətinnin siyasi birliyi sarsılmışdı. Belə ki, qeyd edilən tarixdən sonra Ağqoyunlu şahzadələri və sərkərdələri arasında hakimiyyət uğrunda mübarizə və müharibələr baş qaldırmış, Türkman əmirlərinin hər biri ayrı-ayrılıqda bir şahzadədəni gündəmdə tutmaqla özləri hakimiyyəti ələ keçirməyə çalıçırdılar. Sufi Xəlil bəhs edilən dövrün tanınmış şəxsiyyətlərindən biri idi və daha tədbirli olduğuna görə rəqiblərindən irəli keçə bilmişdi. O, bu yolla öz rəqiblərinə qalib gələrək azyaşlı şahzadə, Baysunquru hakimiyyətə gətirməyə nail oldu.Əslindəisə Türkmanlara onun şəxsən özü başçılıq edirdi. Belə ki, o, öz nüfuz və gücünü qoruyub saxlamaq üçün şahzadələr və digər rəqiblərini öldürür və ya həbsə salırdı. Onun tapşırığı ilə divan əmiri olan Mirzə Əli, Uzun Həsənin oğlu Məsih Mirzə və türkmanlarin bir sıra digər əmirləri qətlə yetirilmiş, Uzun Həsənin nəvələrindən biri olan Rüstəm Bəy isə Əlincə qalasında həbsə atılmışdı. Buna baxmayaraq Sufi Xəlilin bu hegemonluğu uzun sürə bilmədi. Çünki onun qarşısına Süleyman Bəy kimi güclü rəqibi çıxmış oldu. Süleyman Bəyin həm Ağqoyunlu ailəsi ilə qohumluq əlaqəsi var idi, həm də Bayandur tayfasının nüfuzlu əmirləri tərəfindən dəstəklənirdi. Məhz buna görə də bu iki rəqiblərin qarşı-qarşıya gəlməsi qaçlmaz idi. Nəhayət, Van qalasının yaxınlığında onlar qarşı-qarşıya gəlməli oldu və bu döyüşdə Sufi Xəli məğlub oldu və öldürüldü. Süleyman bəy şahzadə Baysunqurun padşahlığını dəstəkləməklə hökuməti ələ almış oldu. Beləliklə o, hökumət işlərini ələ alaraq vəzifələrin bölüşdürülməsi ilə məşğul olmağa başladıvə əvvəl də dediyimiz kimi, o, Xacə Ruhullah Şalkani Qəzvinini Təbrizdə vəzir mənsəbinə təyin etdi [19, s. 366-368; 4, s. 90-91].

Görünən odur ki, Xacə Ruhullah Şalkani bu vəzifədə yalnlız on bir ay qala bilmişdir. Çünki Budaq Münşi Qəzvini onun bu vəzifəyə təyin edilməsinə dair həmin əsərin “hc.896/m.1491-ci il Ramazan ayı hadisələri” ilə bağlı bölməsində məlumat vermişdir[8, s. 91]. Baysunqur Mirzə Gilana qaçdığ, Süleyman Bəy Bijən isə Rüstəm Bəyin tərəfdaşları tərəfindən öldürüldü vəhəmin ilin Rəcəb ayının sonlarında Rüstəm Bəy Təbrizdə taxta çıxdı [11, s. 255, 19, 267-268]. Bütün baş verənlərdən sonraXacə Ruhullah Şalkanı vəzifəsində qala bilməzdi. Münşi Budaq Qəzvini isə onun bundan sonrakı taleyibarədə heç bir məlumat verməmişdir.

Təəssüflər olsun ki, Xacə Ruhullah Şalkanı həyatı ilə bağlı bu qısa məlumatı yalnız Budaq Münşi Qəzvini vermişdir. Belə ki, Ağqoyunlu dövrünə aid mötəbər mənbələrdə, eləcə də Səfəvilər dövründən müasir dövrümüzədək gəlib çatmış ümumi tarix məxəzlərində Xacə Ruhullah Şalkaninin həyatına dair heç bir məlumata rast gəlinmir.

Budaq Münşi tərəfindən həmin əsərdə adı çəkilən və bu ailəyə mənsub olan digər tanınmış şəxsiyyətlərdən biri də, Xacə Ruhullah Şalkaninin oğlu və Budaq Münşinin dayısı Əmir Bəy Şalkani Qəzvinidir. "Cəvahir əl-əxbar" əsərində verilən məlumata əsasən deyə bilərik ki, Səfəvilər dövründə Əmir Bəy Bağdad valisi, Məhəmməd Xan Şərəfəddinoğlu Təkəlinin vəziri və vəkili vəzifəsində çalışmışdır. Təkəli xanı Əmir Bəyə xüsusi hörmət bəslədiyindən o, öz nüfuz və hörmətindən istifadə edərək bacısı oğlu Budaq Qəzvinini İraqi-ərəb divanına yerləşdirə bildi. O, əvvəlcə divanın katibi, sonra isə Bağdad qoşunun yazarı vəzifəsinə təyin olundu. [8, s. 187-188].Əmir Bəyin həyat və taleyi barədə Səfəvlər dövrünə aid olan mənbələrdə heç bir məlumata rast gəlinmir.

Beləliklə, Budaq Münşi divanla bağlı olan yazı və digər işləri Qəzvin məktəblərindən birində öyrəndikdən sonra, on dörd yaşında katib və mirzə kimi "Padşahındivanına" daxil olur.Bir ildən sonra o, Mustovfi əl-mamlik - bütün vergi işçilərinin başçısı vəzifəsinə təyin edildi. Məmləkətin baş dövlət divan vergilərinin başçısı olan Xacə Şah Hüseyn Kaşi və onun qardaşı İzəddinin təklif və məruzəsinə əsasən Budaq Münşihəmin vəzifədə saxlanılır və işini davam etdirir. O, bu barədə yazır:

*"Bəndeyi-fəqir məktəbdə müxtəlif xətlərin yazılışını öyrənib mənimsədim, on dörd yaşındaykən ali həzrət Padşahın divanına daxil oldum... və növbəti il divanda katib vəzifəsinə təyin olundum və mənə üç tümən məvacib kəsildi. Dörd ildən sonra Mustovfi əl-məmalik vəzifəsini tutan Xacə Şah Hüseyn Kaşi mənim xəttimi görüb bəyəndi və belə bir qərar qəbul etdi ki, onun hüzuruna göndərilən bütün keyfiyyətli divan sənəd və yazıları məhz mənim xəttimlə yazılsın, məvacibim də beş tümənə qaldırıldı.*

*Altıncı il ölkənin bütün məmləkətlərində əmlak və xərcləri hesablayıb yazan bir divan şöbəsi (Dəftəri-məruzə) yaradıldı və (yazı işləri) mənə həvalə olundu,qeyd edilən məsələlərlə bağlı baş verən bütün yeniliklər və dəyişiklikləri yazıb saxlanmaq işi mənə tapşırıldı. Növbəti ilə qədər bu şöbə ümumilikdə daha geniş məsələləri əhatə etməyə başladı, islah işlərinin əksinə, məmurlar tərəfindən aparılan bütütn hesablamalar bu şöbədə qalmalı idi və bəndeyi-həqirin məvacibi də səkkiz tümənə qaldırıldı, bu*

*dəftərxananın müdiri onun qardaşı Xacə İzzəddin, katibi isə mən idim".* [4, s. 187-188].

Nəzərə alsaq ki, Budaq Münşi Qəzvini hc.916/m.1510-cu ildə doğulmuş və on dörd yaşındaykən, yəni hc.930/m.1524-cü ildə "Padşahın divanına" daxil olmuşdur, deməli o, hc.931/m.1525-ci ildə katib kimi "Dəftəri-ərbabit-təhavil = təhvil-təslim işləri idarəsi"ndə fəaliyyətə başlamışdır. Əgər "on dörd ildən sonra" ifadəsini onun divana daxil olduğu tarixdən etibarən nəzərdə tutulduğunu qəbul etsək, deməli o, hc.934/m.1528-ci ildən etibarən Xacə Şah Hüseyn Kaşi və onun qardaşı Xacə İzzəddinin yanında qulluq etməyə başlamışdır və bu əməkdaşlıq müəllifin iş təcrübəsinin altıncı ilinədək (hc.936/m.1529) davam etmişdir.

Beləliklə, Xacə Şah Hüseyn Kaşi Cuhe Sulatn Təkəlinin canişinliyi dövründə "Mustovfiyül-məmalik = əyalət mühasibatçısı" vəzifəsinə təyin edilmiş və hc.938/m.1531-ci il tarixədək həmin vəzifəni icra etmişdir. Həmin il I Şah Təhmasibibn əmisi oğlu Hüseyn Xan ŞamlıQızılbaş tayfalarının əmirləri arasında baş vermiş daxili çəkişmələr və müharibədən sonra canişinlik məqamına nail oldu və dərhal öz rəqibi, Cuhe Sultana xidmət edən vəzir və əmirləringətlinə fərman verdi,bu fərman o cümlədən Cuhe Sultanın vəziri olan Urux, "Dəftəri-ərbabit-təhavil = təhvil-təslim işləri idarəsi"ndə xidmət edən Xacə Hüseyn Kaşi və onun qardaşlarına da şamil olunurdu [6, s. 286; 13, s. 218].

Hc.935/m.1528-ci ildə Bağdad Zülfüqar Mosullunun əlindən çıxdıqdan və Şah Təhmasib tərəfindən Məhəmməd Xan Şərəfəddinoğlu Təkəlinin həmin bölgəyə hakim təyin edildikdən sonra Budaq Münşi Qəzvini Məhəmməd Xan Təkəlinin sərəncamı altında çalışmağa başladı. Bundan əvvəl də qeyd etdiyimiz kimi, bu işdə onun dayısı və Məhəmməd Xanın vəzir və canişini olan Əmir Bəy Şalkanininmühüm rolu olmuşdur. Budaq Münşi əvvəlcə Məhəmməd Xan tərəfindən İraqi-ərəbin divanında katib vəzifsinə təyin edildi. Üç il sonra ona əvvəlki vəzifəsi də qalmaqla Bağdad qoşununun da yazar və katibi vəzifəsini icra etmək ona həvalə edildi. Bilindiyi kimi, hc.940/m.1533-cü ildə Osmanlı imperiyası – Sultan Süleyman Qanuni Bağdada yürüş təşkil etdi və Məhəmməd Xan Səfəvi padşahının göstərişi ilə geri çəkilməli oldu və Budaq münşi həmin tarixidək bu vəzifələri icra edirdi. Sultan Süleymanın Bağdada hücumu ilə bağlı daha ətraflı məlumat əldə etmək üçün isə aşağıdakı mənbələrə müraciət etmək olar: "Tarixi Cahan ara", s. 288-289; "Əhsənüt-təvarix", c. 2, s. 228-231; "Təkmilətül-əxbar", s. 66; "Cəvahir əı-əxbar", s. 170-181.

Münşi Budaq Qəzvinin qeyd edilən məsələ ilə bağlı yazır ki, *"... fağır dayım Əmir Bəy Şalkani Qəzvini, Məhəmməd Xan Təkəli Şərəfəddin Əlanın vəziri və vəkili vəzifəsini icra edirdi, Bağdadı Məhəmməd Xana verdikdən sonra məni də özü ilə apardı və mən, İraqi-əcəm divanında katib təyin olundum. Həmin dövr mənim cavanlıq ömrümün səfalı dövrünə təsadüf edirdi və asudəçilik idi, o zaman mənim iyirmi yaşım var idi. Üç il katiblik etdikdən sonra və Məhəmməd Xan mənim xidmətlərimi görəndə ordunun yazı işlərini də mənə həvalə etdi və məvacibim iyirmi tüməndən otuz tümənə qaldırıldı. Bağdadda keçirdiyimmüddət yeddi il oldu və ordan çıxdıqdan sonra əlavə iki il müddətinə də Məhəmməd Xan ilə qalmalı oldum və vəzirlərin olduqları yerlərdə gəzib dolanırdım."*[4, s. 188].

Burada iki məsələyə diqqət yetirməyimiz vacibdir:

1.Məhəmməd Xanın hc.935/m.1528-ci ildə Bağdad hakimi vəzifəsinə təyin olduqdan bilafasilə sonra Münşi Budaq öz dayısı ilə həmin bölgəyə gedə bilməzdi. Çünki deyildiyi kimi o, ən azı hc.936/m.1529-cu ilin əvvəllərinə qədər Xacə Şah Hüseyn Kaşi Xacə İzzəddinin katibi olmuşdur. Deməli o, elə hc.936/m.1529-cu ilin əvvəllərindəcə Bağdada yollanmışdır.Müəllifin: "o zaman mənim iyirmi yaşım var idi"ifadəsi bir daha deyilənlərə sübutdur.

2.Digər tərəfdən Budaq Münşi yazır ki, ömrünün yeddi ilini Bağdadda keçirmiş, sonra isə Məhəmməd Xan Təkəli ilə birlikdəBağdaddan geri qayıtmışdır. Göründüyü kimi, bu mətləb çaşdırıcı və şişirdilmiş bir məsələdir və xronoloji baxımdan dauyğun gəlmir. Çünki, Məhəmməd Xan Təkəli yalnzı hc.935-940/m.1528-1533-cü illərdə Bağdadın hakimi olmuşdur. Beləliklə, əgər Bağdadın hakimi olan şəxs ömrünün yalnız beş ilini Bağdadda keçiribsə, necə ola bilər ki, onun divanında çalışan katib həyatının yeddi ilini həmin bölgədə keçirmiç olsun. Xüsusilə nəzərə alsaq ki, müəllifin özü etiraf edir ki, Bağdada giriş və çıxışı Məhəmməd Xan Təkəlinin müşayiəti ilə baş tutumuşdur.

Qeyd olunanları nəzərə alaraq deyə bilərik ki, Budaq Münşi yalnız hc.936/m.1529-ci ilin əvvəllərindən hc.942/m.1535-ci ilədək – üstə gəl "iki il" Məhəmməd Xan Təkəlinin yanında qulluq etmişdir.

Budaq Münşi Qəzvinin öz tərcümeyi-halını davam etdirərək yazır ki:

*"İki ildən sonra Xana Herat hakimliyi vəzifəsi verildi və qoşun katibliyi də başqasına həvalə edildi. Mən bu işdən incidim, baxmayaraq ki o, mənə dedi ki, səni Heratda katibliklə*

*yanaşı həm də özümün xüsusi vəzirim təyin edəcəm. Bəndeyi-həqir bunu qəbul etməyib, Kermanda onun əlindən çıxıb qaçdım və Cəruna (Bəndərabbasın qədim adı)daxil oldum. Düşdüyüm çətinlik və imkansızlıq ucbatından saxta məktublar və yazılar tərtib edib, özümüm Sultan Məhəmməd Mirzə və Məhəmməd Xanın elçisi kimi təqdim etdim. Beləliklə, Mirzə və Xan üçün yüz tümən, özüm üçün isə otuz tümən aldım. Axırda məsələni başa düşübMirzə və Xan üçün verdiklərini geri aldılar, amma mənim üçün verdiklərini almadılar."*[4, s. 188-189]

Səfəvi dövrünün mənbələrinə görə, hc.942/m.1535-ci ildə Sultan Məhəmməd Mirzə Səfəvi beş yaşındaykən [5, s. 736;10, s. 72; 12, s. 219 ] Heratın hakimi təyin edildi və Məhəmməd Xan Təkəli onun qəyyumu və lələsi (tərbiyəçi müəllim) olaraq seçildi və o, Səfəvi şahzadəsinin adından Heratın hakimi oldu[11, s. 292; 7, s. 346; 10, s. 87] və Budaq Münşinin yazdığına görə, bundan sonra bir də Məhəmməd Xanın ona olan əvvəlki hörmət və rəğbətini cəlb edə bilmədi, bəlkə əksinə bütün baş verənlər onun incik düşməsinə səbəb oldu.Məhəmməd Xan ona Herata təyin olduğu halda özünün xüsusi katib və vəziri olacağını söz versə də, pərişan və inamsız halda ondan uzaqlaşdı, səhraya üz tutdu və Cərun bölgəsinə gedib şıxdı. Sonra yazır:

*"Elə ki Qəzvinə gəlib çatdım, Bəhram Mirzə Gilandan çıxmışdı və onun katibi də öldürülmüşdü, məni katib qoydu. On dörd il həmin vəzifədə çalışdım, mənim onunla olan ünsiyyət və yaxınlığım o dərəcəyə çatmışdı ki, gecə-gündüz vaxtımı Mirzənin mənzilində keçirməli olurdum. Gündüzləri onun qulluğunda həmsöhbət olub, gecələri də onun ayağı altında yatırdım. Bəzən elə olurdu ki, qırx günlərlə və yaxud bir ay müddətinə arvad-uşağımın belə üzünü görə bilmirdim"*[4, s.189].

Gilan-Lahizan hakimi Karkiya Sultan Həsənhc.934/m.1528-ci ildə fani dünyanı tərk edərək darül-bəqaya köçdüyünə görə, Şah Təhmasib Səfəvi o bölgənin hakimiyyətini həmin ilin "cəmadiül-axər"ayında qardaşı Bəhram Mirzəyə həvalə etdi və o, həmin bölgəyə yola düşdü. Amma öz hakimiyyətini Gilanlı əmirlərin dəstəyi sayəsində qoruyub saxlaya biləcəyini düşünən Səfəvi şahzadəsi öz xəyallarını gerçəkləşdirə bilmədi. Xüsusilə ona görə ki, onun müqabilində güclü rəqib Müzəffər Sultan Giləki dayanırdı. O, öz nüfuzu altında olan Gilan əmirlərini şahzadənin əleyhinə üsyana qaldırdı və Bəhram Mirzə məcbur qalıb bir neçə ay uğursuz hakimiyyətdən sonra ümüdsüzlikdən Qəzvin istiqamətinə qayıtmalı oldu. [11, s. 292;5, s. 361-362; 12, s. 86]

Budaq Münşinin Cərundan Qəzvinə qayıtma tarixi Bəhram Mirzənin ora daxil olduğu tarixlə üst-üstə düşürdü və həmin ildə Səfəvi şahzadəsinin katibi seçildi və onun yanında nüfuz və hörmət qazandı. Özünün dediyinə görə, on dörd il (hc.943-957/m.1536-1550) həmin mənsəb və vəzifədə qulluq edtmişdir.

Nəhayətən həmin dövr də başa çatdı və Bəhram Mirzənin vəziri Xacə İnayətullah Şirazi Nəvvabi-əla, yəniŞah Təhmasıbin  yaxın adamlarından olduğuna görə o, paxıllıq və həsəd ucbatından Bəhram Mirzənin katibinin əleyhinədanışmağa başladı. Bu səbəbdən Budaq Münşiyə qarşı qəzəblənərək aralarında kin-küdurət yarandı və onu tutduğu vəzifədən kənarlaşdıraraq nağd şəkildə ağır cərimə ödəməyə məcbur etdi. O, qazandığı mal və mülkün hamısını itirmiş oldu və altı il beləcə işsiz və təcrid olunmuş şəkildə qaldı. Öz yazdıqlarına görə, məhz həmin dövrdə o, Qurani-kərimin üzünü yazmışdür. Ola bilsin ki, Budaq Münşi öz tarixi əsərini də elə həmin asudə vaxtı qələmə almışdır. O, bununla bağlı yazır:

*“...iş o yerə çatdı ki, vəzir Xacə İnayətullah paxıllıq üzündən bəndeyi-həqir barədə həqiqətə uyğun olmayan bir neçə söz danışmış və Nəvvabi-əla (Şah Təhmasib)də  bu sözdən qəzəblənmişdir. Buna görə məndən (rəsmi şəkildə) üç yüz tümən dəyərində cərimə alındı və digər yüz tüməni də dövlətə təhvil verməli oldum. Beləcə altı il müddətinə işsiz-gücsüz, təcrid olunaraq müradına yetməyən bir şəxs kimi kənarda qaldım, zamanımı isəmüshəf (Quran) yazmaqla keçirirdim.”*[4, s.189].

Budaq Münşi hc.950/m.1543-cü il hadisələrinə həsr etdiyi bölmədə özünün katiblik vəzifəsindən uzaqlaşdırılmasına dair nisbətən ətraflı məlumat təqdim etmişdir. O, burada yenə də vəzifəsindən kənarlaşdırılaraq qınaq obyektinə çevrilməsində vəzir Xacə İnayətullahın rolunu vurğulamışdır. Müəllif həmçinin həmin şəxsin kin-küdurəti, paxıllıq və I Şah Təhmasibin yanında olmazları danışması nəticəsində bəzi əmirlərin qətlə yetirilib və yaxud işdən qovulduğunu qeyd etmişdir. Budaq Münşi Qəzvininin yazdıqlarına diqqət yetridikdə məlum olur ki, Səfəvi şahzadəsinin ətrafında olan şəxslərin məqsədi onu qardaşı Təhmasibin hakimiyyətinə qarşı çıxmağa təhrik etməkdən ibarət olmuşdur. Vəzir Xacə İnayətullah də Bəhram Mirzənin yanında olduğuna görə bütün bunlardan xəbərdar idi və bu barədə Səfəvi padşahına məlumat verməklə bütün hadisələrdən öz xeyrinə istifadələr edirdi. Belə ki, o, susmayıb qardaşının sarayında baş verənlər barədə Padşaha məlumat verdi və nəticədə Budaq Münşi Qəzvini öz işini və əmlakını itirmiş oldu. Həmçinin bu hadisədən sonra bəzi əmirlər şahzadənin sarayından qovuldu, bəziləri isə qətlə yetirildi. Müəllif

bununla bağlı yazır:

*"Şah Təhmasib hc.950/m.1543-cü ildə Qəzvində qışlaq etdi və ... Bəhram Mirzə əlahəzrətin yanına gələndə onun halının pis olduğunu gördü, çünki möhtərəm şəxsə artıq dastanlar söylənilmişdi, onun həbs edilməsinə hökm verildi, müəllifin Bəhram Mirzənin yanında hörməti olduğunu bilən vəzir Xacə İnayətullah mənə paxılıq edirdi. O, mənimlə bağlı bir neçə söz deyəndən sonra mənim işim dondu, illər ərzində topladığım əmlak və mirasımı itirdim. Qırx gün başımdan bəla əskik olmadı, işkəncələrə məruz qaldım, hər şeyi bilən və görən Allah şahiddir ki, mütləq şəkildə mənim heç bir günahım yox idi. Üç yüz tümən əsas məbləğ, yüz tümən isə ikinci dərəcəli məbləğ (cərimə) olaraq məndən tutuldu, başqaları isə, o cümlədən Mirzəlik edən gənc Talış, şərbətçi Əliqulunu qətlə yetirildilər, bəziləri də qovuldular, o cümlədən Səyyima, divan əmiri Murad Bəy Zülqədər, axur əmiri Məhəmməd Bəy və yasavul Aydın."*[4, s.192-193].

Qeyd olunanlara istinadən deyə bilərik ki, Budaq Münşi Qəzvini heç zaman on dörd il müddətinə Bəhram Mirzənin katibi olmamışdır, bəlkə yalnız yeddi il bu vəzifəni icra etmişdir (hc.943-950/m.1536-1543). Bundan əlavə onun altı il işsiz qaldığını nəzərə alsaq (hc.950-956/m.1543-1549)-cu illəri də əldə etmiş oluruq. Amma müəllif hc.955/m.1548-ci il hadisələr bölməsində yazır ki:

*"...və həmin ildə ... Padşahın şahanə lütfü müəllifə də şamil oldu, belə ki, Savux Bulaq, Şəhriyar, Fişgildərə və Şəmiran kələntərliyi*[1]*məsələsində mənə acıyaraq mərhəmət göstərildi."*[4, s.201-202].

Müəllif həmin mövzu ilə bağlı başqa bir yerdə belə yazır:

*"Əlahəzrət şahzadə (Nəvvabi-əla) mənə acıyaraq öz lütfünü göstərdi və Savuxbulaq, Şəhriyar və Fişgildərənin kələntərlik vəzifəsini (şəhərin inzibati işlərini görən şəxs) əlli tümən rəsmiməvaciblə mənə həvalə edildi."*[4, s.186].

Qeyd olunanlara əsasən deyə bilərik ki, o, hc.950-955/m.1543-1548-ci illər ərzində işsiz qalmış və divan işlərində heç bir rol ifa etməmişdir.

Budaq Münşi hc.984/m.1576-cı ilədək özü haqqında belə yazır:

"*Savuxbulaq, Şəhriyar və Fişgildərənin kələntərlik vəzifəsində əlli tümən rəsmi məvacibləişləməyimə qərar verildikdən sonra mən üç il həmin mühüm işlə məşğul oldum, o zamana qədər ki, Məhəmməd Xan Heratdan mənə xələt və xərclik göndərdi və məni yanına*

---

[1]Kələntər – Şəhərin inzibati işlərinə baxan vəzifəli şəxs; Kələtrəlik – Şəhərin inzibati işlərinə nəzarət edən idarə - E.R.

*tələb etdi, mən də öz istəyimlə Herata yola düşdüm. Səbzivarda Xorasan vilayətinin baş vəziri Ağa Kamali xəbər tutdu ki, mən Herata gedirəm, gəldi və məni istər-istəməz saxladı və Bostam və Biyarcmənd diyarının vəzirinin mühüm hesablama işlərinin görülməsi məqsədilə oraya göndərdi. Dörd il müddətinə həmin işlə məşğul oldum. Ondan sonra Xorasan vilayətinin vəzir və hesablama işlərinin görülməsi üçün göndırdi, bu diyarda da rahat və asudəçilik gördüm. Bundan sonra mən Cahan Ərğəban, Kəlbdər və Sərkarmədəndə daxili hesablama işlərini görülməsi üçün göndərildim. On ilhəmin zadəganla keçirdikdən sonra, Mustafa Sultan Varsaq vəzir və vəkillik vəzifəsinin tamamını bəndeyi-həqirə təklif etdi. Səbzivar və Torşiz onunku idi. Bundan sonra isə Əsfəraində işləməyi mənə həvalə etdilər. Daha on il müddətinə onunla qalmalı oldum, əslində mən onun sərəncamında deyildim, mən ağa, o isə nökər qismində idi. Taki Ağa Camali xəbər verdi ki, uyğun bir gündə gəlim, mənim üçün ali mənsəblər almaq istəyir. Bu həvəslə Xorasandan çıxdım və əlimdə üç yüz tümən sərvətim var idi. Damğana çatanda, Ağa Camalinin tutulma xəbərini aldım, qəribə hisslər keçirdim və özümü qınamağa başladım. Ağlıma belə bir fikir gəldi ki, bundan sonra Hicaza getməliyəm. Qəzvinə yetişdim, buralarda sakitlik idi, birdən Məsum Bəy qəzəbli şəkildə gəldi və dedi ki, Ağa Kamalın sözünə baxıb Mustafa Sulatn (Varsaqın) icazəsi olmadan gəlmisən. Yüz əlli tümən məndən aldılar Murad Xan Ustacluya verdilər.*

*Olan-qalanım da əlimdən çıxdı, beləcə daha altı il işsiz-gücsüz qaldım, yenə də təkrar lütf və mərhəmət yeli Nəvvabi-əla (Canişin) tərəfindən əsdi və Damğan, Bostam, Biyarcmənd və Ərəb diyarının vəzir və hesabat işi mənə həvalə olundu. Bu diyarın malı və mülkünə cavabdeh olan İsgəndər Bəy Əfşar ilə xüsusi görüşdüm və görüş əsnasında altmış tümən nağd şəkildə ona məvacib olaraq verdim. Çatdırıldı ki, hökmün ziddinə olaraq beş yüz tümən vermişdir, həqiqət üzə çıxmadığına görə işdən azad edildim, taki otuz tümən borc aldım. Beş il işsizlikdən sonra cahanın padşahı əmr etdi ki, Qəzvinin on il müddətinə bütün əmlak, məhsul və ixracatını hesablayıb yazım və bütün bu yazdıqlarımın müqabilndə bir dinar belə zəhmət haqqı almamalı idim. İki il bu işlə məşğul oldum və altı beş min tümən qırağa yazdım və bu da hər kəsin istəmədiyi bir iş idi və çatdırıldı. Hal-hazırda bındeyi-həqir işsiz-gücsüz oturmuşam yerimdə, kitabı yazıb bitirənə qədər mənim yaşımaltmış səkkiz (68) idi və ... (hc.984/m.1576) ildə yazılanlar müəllifin tərcümeyi-halına aid olanlardır*"[4, s.189-190].

Qeyd edilənlər arasında təəccüb doğuran məqam isə Budaq Münşinin işlədiyi illərin xronoloji baxımdan uyğun gəlməməsindən ibarətdir. Belə ki, xronologiyaya diqqət yetirdikdə aşağıdakıların şahidi oluruq:

1. Üç il Savuxbulaq və digər yerlərdə kələntərlik (hc.955-958/m.1548-1551)

2. On il Xorasanın müxtəlif yerlərində Ağa Kamalinin vəziri və mühasibi (hc.958-968/m.1551-1560)

3. On il Tərşiz və Səbzivarın hakimi olan Mustafa Sultan Varsaqın vəziri və vəkili (hc.968-978/m.1551-1570)

4. Altı il işsiz və təcrid olunmuş halda (hc.978-984/m.1570-1576)

5. Qısa bir müddətdə Damğan və digər yerlərdə vəzir və mühasibatçı vəzifəsi (hc.984/m.1576)

6. Yenə beş il işsiz və təcrid olunmuş alda (hc.984-989/m.1576-1581)

7. İki il qeydiyyat işi üzrə məsul şəxs (Qəzvinin əmlak, məhsul və məxariclərin hesablanması) (hc.989-991/m.1581-1583)

Bununla yanaşı sonda o, öz tərcümeyi-halı ilə bağlı yazır : *"...indi...əsəri yazanadək bəndeyi-həqirin yaşı altmış səkkiz (68) oldi və ... (hc.984/m.1576) ildə yazılanlar müəllifin tərcümeyi-halına aid olanlardır."*[4, s.190].

Budaq Münşi öz tərcümeyi-halını yazarkən nə üçün divanda qulluq etdiyi dövrü bu cür qarışıq və uzlaşmayan şəkildə təqdim etdiyi sualına (?!) isə qaneedici cavab tapmaq mümkün deyil. Yalnız belə ehtimal edə bilərik ki, müəllif yaşa dolduğuna və hadisələrdən uzun müddət keçdiyinə görə bu cür zehni səhvlərə yol vermişdir. Hər halda, güman edilir ki, onun dövlət qulluğunda işlədiyi illərin sayı qeyd etdiyindən çox az olmuçdur. Əgər bu fərziyəni(hipotezis)i qəbul etsək, müəllifin peşə məşğuliyyətinin xronoloji göstəricilərini də məntiqə uyğunhesab etmək olar.

Odur ki, əgər müəllifin üç il müddətində kələntərilik etdiyi dövrüAğa Kamalin qulluğunda durduğu illər kimiqəbul etsək, o zaman hc.955/m.1548-ci ildən hc.965/m.1558-ci ilədək Savuxbulaq, Fişgildərə, Şəhriyar və Şəmiranda kələntər işlədiyi, Bostam və Biyarcmənd və ...də Ağa Kamalinin vəzir və mühasib işlədiyi dövrü, yəni hc.965-975/m.1558-1568-ci illəri isə Mustafa Sultanın vəziri və mühasibi işlədiyi dövr kimi nəzərdə tutula bilər.

Buna baxmayaraq, müəllifin Səbzivar və Tərşizdə Mustafa Sultan tərəfindən on il

müddətinə vəzir və mühasibatçı olaraq işlıməsi heç də xronoloji baxımdan uyğun gəlmir. Çünki, Səfəvilər dövrünün mənbələrinə istinadən Ağa Kamali hc.973/m.1565-ci ildə baş vəzirlik mənsəbindən azad edildikdən sonraonun Ağa Camali adlı oğlu da həmin ili "səhv hərəkətləri" və "rəddeh/ردده – dindən dönmüş" sözünü dilə gətirdiyinə görə tutulmuşdi [8, s.190]. Budaq Münşinin özü də etiraf edir ki, bundan sonra o, öz etibar və nüfuzunu itirdi, həmçinin "Ağa Kamalinin işçisi olmaq" və Mustafa Sultanın razılıq və icazəsi olmadan qulluq yerini tərk etmək ittihamı ilə Şah Təhmasibin vəkili Məsum Bəy Səfəvi tərəfindən ona yüz əlli tümən məbləğində cərimə tətbiq edilmişdir.

Buna görə də deyə bilərik ki, Budaq Münşi yalnız hc.965-973/m.1558-1565-ci illər ərzində, yəni doqquz il yox, bəlkə cəmi səkkiz il müddətinə Mustafa Sultanın vəziri və mühasibi vəzifəsində çalışmışdır.

Müəllifin özünün də qeyd etdiyi kimi, o, bundan sonra on bir il (əvvəlcə altı, sonra isə beş il) müddətinə işsiz qalmışdır. Beləliklə, hesabladıqda görürürk ki, bu işsizlik dövrü hc.973-984/m.1565-1576-cı illərə təsadüf edir və görünən budur ki, "Qəzvin əyalətinin əmlak, məhsul və məxaricləri"ninhesablanaraq qeydiyyata alınması tapşırığı ona hc.984-986/m.1576-1578-ci illər üçün verilmişdir. Amma, bununla bağlı Budaq Münşi Qəzvinin tərcümeyi-hal bölməsində qeyd etdikləri məlumatlar bu hesablamalarla ziddiyyət təşkil edir. Belə ki, o, öz əsərində yazır ki, "hc.984/1576-cı ildə onun altmış səkkiz yaşı olmuşdur."

Anlaşılan budur ki, Budaq Münşi Qəzvini yalnız hc.973-979/m.1565-1571-ci illər ərzində işsiz qalmış, işsiz və təcrid olunmuş şəkildə qaldığı ildə, yəni hc.973/m.1561-ci idə - bir neçə ay keçməmiş Səfəvi şahı tərəfindən ona doğru "lütf və mərhəmət yeli səmiş" və o, Damğan, Bostam, Biyarcmənd və Ərəb Amiri diyarlarının vəziri və mühasibi vəzifəsinə təyin edilmişdir. Amma həmin ili də, yəni bir neçə ay keçdikdən sonra özünün səhvi ücbatından və qanun pozuntusuna yol verdiyinə görə tutduğu vəzifədən azad edilmiş və bundan sonra beş il işsız qalmışdır. Bundan sonra o, hc.979/m.1571-ci ildə və yaxud hc.980/m.1572-ci ilin əvvəllərində ona "Qəzvin əyalətinin əmlak, məhsul və məxaricləri"ninhesablanaraq qeydiyyata alınması tapşırığı verilmişdir. İki bir il ərzində, yəni hc.982/m.1574-cü ilədək ona həvalə edilmiş tapşırığı yerinə yetirməklə məşğul olmuşdur, amma özünün də qeyd etdiyi kimi, yenidən hc.984/m.1576-cı il tarixədək işsiz-gücsüz qalmışdır.

Elə ki, hc.984/1576-cı ildə I Şah Təhmasib vəfat etdi və onun oğlu II Şah İsmayıl taxta

çıxdı, Budaq Münşi Qəzvini özünün divanda olan əvvəlki mövqeyini əldə edib, ona dəymiş ziyanları kompensasiya etmək və nəhayətən padşahın qəlbini ürəyini yumşaltmaq məqsədilə yenidən əlinə qələm almış, yeni padşahı mədh edərək onun səxavətindən yazmağa başlamışdır. O, öz həyatı haqqında və düşdüyü vəziyyətlə bağlı qeyd edir ki:

*"...Sultanlıq taxtına çıxdıqdan sonra ilk gördüyü iş, möhtacların ehtiyacını vermək, zülmə məruz qalmışları zülmdən xilas etmək, atasının sultanlığı dövründə ədalətsizliklə qarşılaşaraq cəfa çəkmiş şəxslərin qırılmış qəlblərinə öz lütfü və mehribançılığı hesabına mərhəm qoymaqdan ibarət olmuşdur. O cümlədən müəllif Münşi Budaq Qəzviniyə qarşı mərhum padşahın dövründə dəfələrlə haqsızlıqlar edilmiş, işkəncələr verilmişdir və yeddi yüz tümənə yaxın verməli olmuşam. Ümidvaram, Haqq-taala mürüvvət sahibi olan padşahın qəlbinə mərhəmət salar və padşah da dərdə düçar olmuş bu ehtiyaclının başına gələnlərə qulaq asar..."*[4, s.241].

Bu məsələ müəllifin özü haqqında yazdığı son mətləbdir və o, öz əsərini cəmadiül-axər ayı, hc.984 (sentyabr ayı, 1576)-cı ildə bitirmişdir. Budaq Münşi Qəzvini bundan sonra özünün divanda çalışdığı dövrə dair heç bir məlumat verməmişdir və biz bilmirik ki, "II Şah İsmayılın dövründə məzluma edilmiş zülmün" qarşısı alınmışdır ya yox və yaxud "dərdə düçar olmuş dərdlinin başına gələnlərə qulaq asan" tapılmışdır ya yox. Təəssüflər olsun ki, bu barədə Səfəvi dövründə qələmə alınmış heç bir qaynaqda məlumatverilməmişdir.

## Ədəbiyyat

1-"Sovet şərqşünaslığı", 1956, No 1, s. 111-112.

2. افشار، ایرج و ....: نشره کتابخانه مرکزی دانشگاه تهران، تهران، 1342 ش. ج 3.
3. برگل، یو.ا. (مترجم): ادبیات فارسی بر مبنای تالیف استوری، مترجمان، یحیی آرین پور و سیروس ایزدی ... تهران، 1362 ش. بخش دوم، صص 592-595.
4. بوداق منشی قزوینی، جواهر الاخبار، بخش تاریخ ایران از قراقویونلو تا سال 984 ه.ق. مقدمه و تصحیحی و تعلیقات محسن بهرام نژاد، تهران، مرکز نشر میراث مکتوب، 1378، 317 ص.
5. حسن روملو، احسن التواریخ، ج 2، به اهتمام عبد الحسین نوائی، بنگاه ترجمه و نشر کتاب، 1349 ش.
6. دانش پژوه، محمد تقی: فهرست میکروفیلمهای کتابخانه مرکزی دانشگاه تهران، تهران 1363 ش. ج 3.
7. روملو، حسن: احسن التواریخ، به اهتمام دکتر عبدالحسین نوایی، تهران، 1357 ش، ج 2.

8. سالتیک شدرین، م.ی.: فهرست نسخه های خطی فارسی و تاجیک در کتابخانه عمومی دولتی لنین گراد، 1988 م. ج 1، ص 125. به نقل از: احمد منزوی، فهرستواره کتابهای فارسی. انجمن آثار و مفاخر فرهنگی، ج 1.
9. شاه طهماسب صفوی: شاه طهماسب، به اهتمام امرالله صفری، تهران، 1363 ش.
10. شیرازی، عبدی بیک(نویدی): تکملة الاخبار. تصحیح دکتر عبدالحسین نوای، تهران، 1369 ش.
11. غفاری قزوینی، احمد (قاضی): تاریخ جهان آرا، تهران، 1343 ش.
12. قاضی احمد قمی، خلاصة التواریخ، تصحیح دکتر احسان اشراقی، تهران، 1359 ش، ج 1.
13. گلریز، سید محمد علی: مینودر یا باب الجنه قزوین، تهران، 1327ش. ج 2، ص 261.
14. مفخم پایان، لطف الله: فرهنگ آبادی های ایران، تهران، 1329 ش.
15. مستوفی، حمدالله: نزةالقلوب، به اهتمام محمد دبیر سیاقی، تهران، 1336 ش.
16. منزوی، احمد: فهستر نسخه های خطی فارسی. تهران، ج 6، ص 4136.
17. نفیسی، سعید: تاریخ نظم و نثر در ایران، تهران، 1344 ش.، ص 356.
18. نویدی شیرازی، زین العابدین، عبدی بیگ ، تکملة الاخبار، تاریخ صفویه از آغاز تا 978 ه.ق، تهران نشر نی 1369، 275 ص.
19. یحیی بن عبدالطیف قزوینی، لب التواریخ، تهران، 1363 ش.
20. یحیی بن عبد اللطیف الحسینی القزوینی، لب التواریخ، گاهنامه 1315 ش. سید جلال الدین طهرانی، از نشریات موسسه خاور، بهمن ماه 1314.